# ALTI ƏSASIN ŞƏRHİ

Muhammməd bin Abdul-Vəhhab bin Süleyman ət-Təmini

Heysəm bin Muhəmməd Sərhan

Sünnə İnstitunun rəhbəri

https://www.alsarhan.com

Tərcümə etdi: **Sahib Xasayev**

# Altı əsasın şərhi

## Muhamməd bin Abdul-Vahhəb bin Süleyman ət-Təmimi

**Rəbinin əfvinə ehtiyacı olanın qələmi ilə:**

**Heysəm bin Muhəmməd Sərhan.**

**Peyğəmbər Məscidindəki Əl-Həram İnstitutunun keçmiş müəllimi  və Sünnə İnstitutunun rəhbəri.**

**Allah onu, valideynlərini və bu kitabın ərsəyə gəlməsində kömək edənləri bağışlasın.**

**https://www.alsarhaan.com**

**Tərcümə etdi: Sahib Xasayev**

# Müqəddimə

**Mərhəmətli və Rəhimli  Allahın adı ilə!**

**Həqiqətən həmd Allaha məxsusdur. Biz Ona həmd edir, Ondan yardım və günahlarımızın bağışlamasını diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allahın doğru yola yönəltdiyi kimsəni azdıran, azdırdığı kimsəni isə doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. O, təkdir və şəriki yoxdur. Mən şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir.**

**“Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda (müsəlman kimi) ölün!”[ Ali imran 102 ]**

**“Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!”[ Nisa 1 ]**

**“Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! (Əgər belə etsəniz, Allah) əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə (Cənnətə) nail olar”[ Əhzab 70-71 ]**

**Amma sonra. Elm tələbəsinə lazımdır ki, şəriətin gətirdiyi usul və qaydaları öyrənsin. Bununla bağlı ən mühüm müxtəsər risalələr arasında Şeyxulislam Muhəmməd İbn Abdul-Vəhhab İbn Süleyman Əl-Təmiminin,[ Hicri 1206 ]  [ Allah ona rəhmət etsin ],  “Altı Əsas” adlandırdığı dəyərli bir risaləsi vardır. . Bu, alimlərin çox diqqət yetirdiyi bir risalədir. Orada müəllif, [ Allah ona rəhmət etsin ] Uca Allahın və Rəsulunun açıq aydın iqrar etdiyi altı əsası sadalamışdır.**

**Lakin insanların çoxu bunda səhvə yol verdilər və Allahin qoyduğu şəriətdən azdılar. Bu risaləni şərh edərkən, biz onu asanlaşdırmaq üçün qrafiklərə böldük. Bu xüsusda biz Şeyx Alləmə Muhəmməd bin Saleh Əl-Useyminin, Allah ona rəhmət etsin [ hicri 1421-ci il ] şərhinə etimad edərək bəzi kiçik əlavələr də etdik.**

**Allahdan bu əsəri sırf Onun rizası üçün etməsini, yazıçının və oxucunun bundan faydalanmasını diləyirik və Allahın salamı və salavatı Onun sadiq Elçisinə, onun ailəsinə və bütün səhabələrinə və qiyamət gününə qədər yaxşı işlərdə onlara tabe olanların üzərinə olsun. Həmd olsun aləmlərin Rəbbi Allaha!**

## Kitabın Müqəddiməsi

Müəllif bildirib
Mərhəmətli və Rəhimli Allahın adı ilə
Ən heyrətamiz təəccüblər və ən böyük əlamətlər qalib olan Allahın qüdrətinə dəlalət edir. Uca Allah zənn edənlərin zənnindən daha üstün formada altı əsası hər kəsə açıq-aydın bəyan etdi. Bundan sonra Adəm övladının bir çox ziyalıları, alimləri və müdrikləri az bir qismi istisna olmaqla, bunda xəta etdilər.

## Müxtəsər Altı əsas

| | | | | | |
|---|---|---|---|---|---|
| Birinci əsas; İxlas və ona zidd olanın bəyanı, bu da şirkdir. | İkinci əsas; Dində birləşmək və təfriqə salmağı qadağan etmək. | Üçüncü əsas; Ölkə başçılarına qarşı çıxmağın və üsyan etməyin əksi olaraq eşidib itaət etmək. | Dördüncü əsas; Elmin, alimlərin, fiqhin və fəqihlərin bəyanı və onlara özlərini oxaşadaraq onlardan olmayanların bəyanı. | Beşinci əsas; Şeytanın dostlarının əksi olaraq Allah dostlarının kimliyinin bəyanı. | Altıncı əsas; Quran və sünnəni tərk etmək əvəzinə kitab və sunnə ilə hidayəti əldə etmək. |

## Biz altı əsası nə üçün öyrənirik

| | |
|---|---|
| 1.Alimlər onu tövsiyyə etmişlər. | 2. İslamın əsaslarını öyrənmək, etiqad etmək və ona əməl etmək üçün. |

| **Müəllif , kitabı bəsmələ {** bismilləhir rahmənir rahim} **ilə başladı. Bu da bütün alimlərin yoludur. Ona görə ki,** | | | |
|---|---|---|---|
| 1. Allahın kitabının, peyğəmbər və elçilərinin (Allahın salamı onların üzərinə olsun) izi ilə gedərək | 2. Zaif hədis olmağına baxmayaraq “ **Bismilləhsiz başlayan hər iş kəsikdir “** bu hədisə istinad edərək | 3. Öz risalə və əsərlərini adətən Allahın adı ilə başlayan özündən əvvəlki alim və sələflərdən nümunə götürərək | 4. Kərim olan Allahın adı ilə daha da bərəkətli olması üçün. |

| **Bəsmələnin { Bismilləhir Rahmənir Rahim } in mənası** | | | |
|---|---|---|---|
| **Adı ilə.** Yəni Allahın adı ilə yazıram. Allahın adının öndən yazmaq onunla bərəkət əldə etmək üçündür | **Allah.** Ləfzu cələlə. Məxluqatı yoxdan var edənin ismidir. Bu, özündə bütün adların və sifətlərin mənasını əhatə edən bir addır. Adların mənası, isnad olaraq Allah adına qayıdır | **Ər Rahmən-Mərhəmətli** Bu ad, Allahın rəhmətinin genişliyinə və bunun bütün məxluqatını əhatə etməsinə dəlalət edən bir addır | **Ər Rahim-Rəhimli** Bu ad, Allahın qullarına geniş rəhmət sahibi olmasını bildirən bir addır. |

## Müəllif altı əsas dedikdə məqsədi  məhdudiyyət qoymaqdırmı ?

Qayda budur ki, əgər  kitab və sünnədə və ya alimlərin sözlərində  ədəd qeyd olunubsa:

| | |
|---|---|
| 1] Kitab və Sünnə dəlillərində bu saydan artığına rast gəlmədik. Beləcə sayın müəyyən bir anlamı olur. Yəni: Say artmır . Məsələn: İslamın dayaqları və imanın dayaqları. Cəbrailin hədisində olduğu kimi və sairə. | [2] Əgər Kitab və Sünnə dəlillərində bu saydan artığını tapsaq belə halda sayın anlamı olmur. Yəni: Kitabda və Sünnənin dəlillərində varid olan sayı onun üstünə əlavə edərdik. Necə ki Allah elçisinin “Beş şey fitrətdəndir...” sözü  və yaxud “Yeddi həlak edici günahdan çəkinin...” dediyi kimi. |

## Nə üçün  bəzən hədislərdə ədəd qeyd olunur amma anlamı olmur ?

Bu, Peyğəmbərin gözəl təlimindəndir. İstəyirdi ki, məclisdə olan dinləyicilər bunu yadda saxlasınlar ki, bir müddətdən sonra belə bu məsələləri  gətirmək onlara asan olsun. Allah elçisinin dediyi kimi: “Üç şey var ki, and içirəm və , onlar haqqında danışacam. Onu əzbərləyin : Heç bir qulun malı sədəqədən azalmaz ” deməsi kimi. Tirmizi rəvayət edir. Müəllif də, Allah ona rəhmət etsin, bunu ona görə belə gətirdi.

| Mühüm məsələlər. | | |
|---|---|---|
| **1) Sələflər arasında bu altı əsas üzərində icma edənlər olubmu?** Bəli. Kitab və sünnənin dəlilləri səhabələrin , sələflərin və imamların sözləri buna dəlalət edir. | **2) Altı əsas adlı kitab ilk kim yazıb ?** Etiqad kitablarında heç bir kitab bu əsaslardan xali deyildir. Lakin bu əsasları müstəqil bir risalədə ilk toplayan Muhammməd bin Abdul-Vəhhab bin Süleyman ət-Təmimidir. | **3) Altı əsası necə təyin edirsiniz?** Hər bir əsası və onun əksini öyrənməklə. |

| **Üsul-sünnə” və “Əqidə kitabları” və “Sünnə kitabları” və “ Altı əsas “ kitabı eyni məzmunludurmu, yoxsa müxtəlif məzmunludur ?** |
|---|
| O kitablar demək olar ki hamısı eyni məzmunda yazılmışdır. Lakin alimlər kitabların adlarını müxtəlif edirlər ki, tələbə darıxmasın. Və ya bəzən şərhə əlavələr edirlər ehtiyaca görə. Bəzən kitabın adı “Sünnənin əsasları” olur”. Necə ki İmam Əhmədin “Üsul əl-Sünnə”si və ya “əqidə” barədə Şeyxul-İslam İbn Teymiyyənin “əl-Əqidətul Vasitiyyə”si kimi və ya “ Sünnə” kimi Xaləlın “sünnəsi” və ya “iman” barədə İbn Əbi Şeybənin “iman” kitabı kimi və ya “ tövhid “ barədə “ tövhid “ İbn Xuzeymə və ya “ əl-Usulu əs-Sittə “ kimi imam Muhammməd ibn Abdul-Vəhhabın “ əl-Usulu əs-sittə “ kitabı. |

## Birinci əsas

**Müəllif, Allah ona rəhmət etsin, demişdir:**
Şəriki olmayan, tək Allaha dinində ixlaslı olmaq və ixlasın əksi olan şirki bəyan etməkdir. Quranın əksər hissəsi bu prinsipi ən səfeh insanların belə başa düşə biləcəyi sözlərlə müxtəlif üsullarla açıqlayır. Sonra islam ümməti elə bir hala gəldi ki şeytan, şirki onlara salehləri sevmək onlara tabe olmaq kimi ixlası isə onlara salehləri naqisləşdirmək onların haqqını aşağı salmaq kimi göstərdi.

| Allah üçün ixlaslı olmaq | | | | |
|---|---|---|---|---|
| İxlas , İnsanın ibadəti ilə Allah-Təalaya yaxınlaşmması və axirət dünyasını qazanmağı qəsd etməsidir. İxlas özündə bu şeyləri təşkil edir. | | | | |
| 1.Niyətində Allaha ixlaslı olmalıdır. | 2.Sevgisində Allaha ixlaslı olmalıdır. | 3.Allah ucaltmaqda ixlaslı olmalıdır. | 4. Zahirində və batinində Allaha ixlaslı olmalıdır. | 5. İbadətini yalnız Allaha yaxınlaşmaq və axirət dünyasını qazanmaq üçün etməlidir. |

| Quranda ixlas barədə gələn bəzi ayələr. | | |
|---|---|---|
| 1.De: “Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! **[ Ənam surəsi 162 ]** | 2.Halbuki onlara, dini məhz Allaha məxsus edərək, hənifləri kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur! **[Bəyyinə 5 ]** | 3.Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: “Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!”– deyə vəhy etməyək.**[Ənbiya 25]** |

| Sünnədə ixlas barədə gələn hədislər. | | |
|---|---|---|
| 1.Bİr kişi Peyğəmbər sallallahu aleyhi və sələmə dedi: “ Allah və sən istəyən kimi olsun”. Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “Məni Allaha bərabər (tay) tutdun, tək Allah istəyən kimi olsun (deyin)”. Hədisi Əhməd rəvayət etmişdir. | 2. Allah elçisi sallallahu aleyhi və səlləm demişdir: Kim Allahdan başqasına and içərsə Allaha şərik qoşmuşdur yaxud küfr etmişdir.. Hədisi Əhməd , Əbu Davud ,Tirmizi rəvayət etmişdir. | 3.Məni özünüz bildiyiniz kimi çağırın. Şeytan sizi özündən vəkil etməsin. Mən Allahın qulu və elçisiyəm. İstəmirəm ki, siz məni Qüdrət və Cəlal sahibi Allahın layiq bildiyi yerdən səviyyədən yuxarı qaldırasınız. Bu hədisi Əhməd rəvayət etmişdir. |

| İxlasın əksi şirkdir | | |
|---|---|---|
| 1.Uca Allah buyurur: Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa olan günahları isə istədiyi kimsəyə bağışlayar. Nisa surəsi 48. | 2.Uca Allah buyurur: Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”– deyə, peyğəmbər göndərmişik. Nəhl surəsi 36. | 3.Allah elçisi sallallahu aleyhi və sələm demişdir: “ Kim Allaha bir şeyi şərik qoşmadan Onunla görüşərsə, Cənnətə daxil olar. Kim Ona bir şeyi şərik qoşub Onunla görüşərsə Cəhənnəmə daxil olar”. Muslim rəvayət etmişdir. |

| Böyük şirk ilə kiçik şirk arasında olan fərq. | |
|---|---|
| **1.Dindən çıxaran böyük şirk.**<br>O, tövhidə tamamilə zidd olan şəriətin adlandırdığı hər bir böyük şirkdir.<br>Məsələn: Yalnız hazır olanın edə biləcəyi bir işdən xilas olmaq üçün qəbir sahibini və ya qeyibdə olanı çağırıb ona dua etmək. | 2.Dindən çıxarmayan kiçik şirk.<br>O, tövhidi mütləq şəkildə pozmayan  və şəriətin şirk adlandırdığı hər bir söz və ya əməldir. Məs: Allahdan qeyrisinə and içmək və ( riya ) özünü göstərmək kimi . |

| Haramların dərəcəsi | | | |
|---|---|---|---|
| **1** Böyük şirk | 2. Kiçik şirk | 3. Böyük günah | 4 Kiçik günah |

| Şirk iki növdür. | |
|---|---|
| Böyük şirk<br>1.Sahibini islam millətindən çıxardır<br>2.Bütün əməlləri puç olur<br>3.Sahibi əbədi cəhənnəmdə qalacaq<br>4.Malı və qanı başçı tərəfindən halal edilir<br>5.Böyük şirk üzərində ölsə heç vaxt bağışlanmayacaq<br>6.Səbəbin kainatda kiçik bir şeyə malik olduğuna inanmaq.<br>7.Əməlin böyük şirk olmasına dəlil ilə isbat edilməli<br>Allahdan qeyrisinin kainatda kiçik bir şeyə malik olduğuna, fayda və zərərin dəf edilməsinin Onun əlində olduğuna inanmaq | Kiçik şirk<br>1.Sahibini islam millətindən çıxartmır<br>2.Yalnız, xüsusi əməli puç edir<br>3.Sahibi cəhənnəmdə əbədi olaraq qalmayacaq<br>4.Sahibinin malı qanı halal edilmir<br>5.Allahın səbəb etmədiyini səbəb etmək<br>6.Bu əməl üzərində ölənin bağışlanmasında ixtilaf vardır<br>7.Böyük şirkə aparan hər söz və əməl kiçik şirk adlanır<br>8.Şəriətin şirk və ya küfr adlandırdığı, qeyri müəyyənlikdə (əlif ləm ) artikılsız gələn hər söz və əməl kiçik şirkdir |

## Qorxu şirkdən sayılır

Şirk çox gizlidir və ər-Rahmənin dostu və həniflərin imamı İbrahim əleyhissələm bundan qorxurdu. Necə ki, Allah onun haqqında buyurmuşdur: **Məni və oğullarımı bütlərə ibadət etməkdən uzaq tut.[ İbrahim surəsi 35 ].** İbn Əbi Muleykə, Allah ona rəhmət etsin, demişdir: "**Mən Allah Rəsulunun (salləllahu aleyhi və səlləm) səhabələrindən otuz nəfərlə görüşdüm, onların hamısı nifaqdan qorxurdular"**. Nifaqdan ancaq münafiq amanda olar, nifaqdan ancaq mömin qorxar. Şirkdən qorxmaq bunlarla olur.

| | | | |
|---|---|---|---|
| 1.Tövhidi öyrənməklə, saleh əməl etməklə, dəvət etməklə və səbir etməklə. | 2. Şirki öyrənmək və ondan çəkinmək üçün səbəbləri bilmək. | 3. Şirkdən qorunmaq üçün Allahdan yardım diləyərək ona dua etmək. | 4.Şirk və onun əhlindən xilas olmaq və onlardan uzaq olmaq. Onlardan olmamaq üçün. |

## İkinci əsas

**Müəllif, Allah ona rəhmət etsin, demişdir:**
Allah dində birliyi əmr edib, parçalanmanı qadağan edib. Beləliklə, Allah bunu sadə insanların başa düşməsi üçün kifayət qədər aydınlaşdırdı. Bizdən əvvəlkilər kimi ayrılıb ixtilafa düşüb həlak olmağı qadağan etdi. O, elçilərə dində birliyi əmr etdiyini və parçalanman qadağan etdiyini bildirdi.
Sünnədə isə bunu əlavə olaraq daha aydın və heyrətamiz formada bildirdi. Sonra iş o yerə gəldi çatdı ki, parçalanma dinin əsaslarına, elm və dində fəqih olmaq isə onun qoluna çevrildi. Dində bir olmaq isə ancaq zındıq və ya dəlinin deyə biləcəyi bir şeyə çevrildi!.

| Quranda birliyi əmr etmək barədə nə varid olmuşdur. | |
|---|---|
| 1.Uca Allah buyurur: Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir çuxurun lap kənarında ikən O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola yönələsiniz.<br>Ali imran 103. | 2.Uca Allah buyurur: Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir.<br>Ali imran 105 |
| 3. Uca Allah buyurur: Dinlərini parçalayıb firqə-firqə olanlarla sənin heç bir əlaqən yoxdur. Onların işi Allaha aiddir. Sonra Allah onlara etdikləri əməllər barədə xəbər verəcəkdir. Ənam 159 | 4.Uca Allah buyurur: Bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Ənfal 46. |

| Sünnədə birliyi əmr etmək barədə nə varid olmuşdur. | | |
|---|---|---|
| 1.Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu zəlil etməz, ona yalan danışmaz, onu təhqir etməz. Təqva bax burdadır (deyərək 3 dəfə sinəsinə işarə etdi). İnsanın pislik etməsi üçün müsəlman qardaşına nifrət etməsi kifayətdir. Hər bir müsəlmanın digər müsəlmanın qanı, malı və namusu haramdır. Buxari. Muslim | 2.Bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizi güdməyin, casusluq etməyin, bir-birinizə arxa çevirməyin! Ey Allahın qulları, qardaş olun! Buxari. Muslim | 3.Mömin, mömin üçün bir-birini tutan bina kimidir.” Sonra o, barmaqlarını bir-birinə keçirdi. Buxari və Müslim. |

Bunun əksinə olaraq, Allahın Elçisi sallallahu aleyhi və səlləm müsəlmanları bir-birindən ayıran və onları təfriqəçiliyə salan hər şeyi qadağan etmiş, söz və əməllə biri birini sevməyə və qəlblərini birləşdirməyə çağırmışdır.

| Sələflərin [ Allah onlara rəhmət etsin ] əməlləri |
|---|
| Mübahisə məsələlərində Əhli-sünnə vəl-cəmaatın əsaslarından biri də budur ki, ixtilafda olan hər şey ictihaddan qaynaqlanır. İctihadla əsaslandırıldığına görə: Onlar İxtilafda bir-birini üzrlü görür və bir-birlərinə qarşı kin saxlamırlar. |

| İslam şəriətində birliyin təzahürlərindən | | | | |
|---|---|---|---|---|
| Bir Allaha ibadət etmək üçün toplanırıq. | Bir peyğəmbərə tabe oluruq | Bir şəriətə əməl edirik | Qibləmiz birdir | Bizim Hamimiz birdir |

| | | | |
|---|---|---|---|
| Hər məhəllədə beş vaxt fərz namaz üçün toplanırıq. | Ölkə əhalisi isə hər cümə günü, cümə namazı üçün toplanır. | Hər Fitr bayramında bir yerə toplanırıq hətta qadınlar və uşaqlar qarışıqlıq olmadan toplantıda iştirak edirlər | Dünyanın hər tərəfindən müsəlmanlar arafa meydanında toplaşırlar. |

| Gözdən keçiriləsi bəzi məsələlər. |
|---|
| **“ Ümmətimin ixtilafı rəhmətdir “** hədis səhih deyil. O cəhətdən onu dəlil gətirmək də doğru deyil. Belə olduğu təqdirdə əgər ixtilaf rəhmətdirsə, bəs ittifaq nədir o zaman ?! |

| Üçüncü əsas | |
|---|---|
| Müəllif, Allah ona rəhmət etsin demişdir:<br>Birliyin kamilliyindəndir ki, həbəşi qul belə bizə əmirlik etsə eşidib itaət ediləcək. Beləliklə, Allah azzə və cəllə bunu şəri cəhətdən hər formada aydınlaşdırmaqla  kifayət qədər bəyan etdi. Sonra bu əsası elm iddiasında olanların əksəriyyəti bilmədi. Bəs ona necə əməl etmək olar ? | |
| Rəhbərlərə eşidib itaət etməklə. | |
| 1, Əmr etdiklərini yerinə yetirməklə. | 2. Qadağan etdiklərindən çəkinməklə |

| Quranda rəhbərlərə itaətin vacibliyi ilə bağlı gələn dəlillərdən bəziləri: | | |
|---|---|---|
| 1.Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə və özünüzdən olan rəhbərlərə də itaət edin. Nisa 59 | 2. Allaha və Onun Rəsuluna itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Ənfal 46 | 3. Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Ali imran 103 |

| Sünnədə rəhbərlərə itaətin vacibliyi ilə bağlı gələn bəzi dəlillərdən | | |
|---|---|---|
| Ubadə ibn Samit demişdir: "(Bir dəfə) Peyğəmbər bizi öz yanına çağırdı və biz ona beyət etdik. Xoş günümüzdə və sıxıntı anlarımızda, düşdüyümüz çətin və asan hallarda, habelə haqqımızı ödəməsələr be-lə, (əmirləri) dinləyib itaət edəcəyimizə dair ona beyət etdik. Habelə, əmi-rə qarşı çıxmayacağımıza söz verdik. Yalnız əmirin açıq-aşkar küfr etməsi və buna dair Allah tərəfindən dəlil-sübutun olması istisnadır. Buxari, Muslim | 2) İbn Abbas ( Allah ondan razı olsun ) rəvayət edir ki, Peyğəmbər r demişdir: "Kim öz rəhbərinin xoşagəlməz bir hərəkətini görsə, qoy buna səbir etsin. Çünki kim (müsəlman) camaatından bircə qarış kənara çıxıb ölərsə, cahiliyyət dövründə olduğu kimi ölmüş olar. Buxari, Muslim | 3) Kim əmrinə itaət etməkdən əl çəkərsə Qiyamət günü (öz leyhinə) qarşı heç bir dəlil olmadan Allahın hüzuruna çıxar. Muslim |

| Tarix boyu islam ümətinin vəziyyətinə nəzər salan şəxs görər ki, | |
|---|---|
| 1).Onlar dinlərinə bağlı olduqca, dində birləşdikcə, əmr sahiblərinə ehtiram göstərdikcə, yaxşı işlərdə onlara tabe olduqca, yer üzündə hökmranlıq və nüfuz sahibi idilər. | 2) O zaman ki, dində bidətlər çixarıb dinlərində parçalandılar, əmr sahiblərinə qarşı çıxdılar, onlara qarşı qiyam etdilər və firqə-firqə oldular. Düşmənlərinin qəlbindən qorxu çıxarıldı, mübahisə edərək ruhdan düşüb zəiflədilər və beləcə millətlər onların üstünə gəldi və selin gətirdiyi çör-çöp kimi oldular. |

| Əmr sahibi və rəiyyət olaraq üzərimizə düşən vaciblər |
|---|
| Allahın bizə əmr etdiyi kimi biri birimizi sevək yaxşılıq və təqvada yardımlaşaq, toplumun mənfəətlərinə görə cəm olaraq, haqq üzərində birləşərək yardımlaşaq , bütün əməllərimizdə ixlaslı olaq və bunun üçün səy göstərək. Bir məqsəd, o da bu milləti mümkün qədər dini və dünyavi cəhətdən islah etmək üçün. Bu da sözlərimizdə ittifaq etməyənə qədər və öz aramızda mübahisələri və ziddiyyətləri tərk etməyənə qədər mümkün olmayacaq. |

## İtaət etmək və hakimə qarşı çıxmamaqla bağlı xüsusi göstərişlər.

*Əmir sahiblərinə, alimlərə dua etmək və onları sevmək.

*Bir şey verildikdə qane olanlardan, verilmədikdə qəzəblənənlərdən olma.

*Dua { Allahım! Məni Öz halalınla kifayətləndirib haramına möhtac etmə! Məni Öz lütfünlə Özündən başqasına möhtac etmə! }

*Tək olan Allaha bağlan, hakimlərə, alimlərə, nazirlərə, zənginlərə bağlanma.

*Mömin möminə buğz etməz. İmam Sədi { Allah ona rəhmət etsin } buyurdu : Bu hökm rəhbərlərə də aid edilir.

*Bizim dəvətimiz yalnız islah dəvətidir. Fərdlərin və cəmiyyətin islahı ilə bağlıdır.

*Sələflərin həyat hekayələrini oxumaq. Onların rəhbərlərə qarşı müamilələrinə baxmaq.

*Cənnət ancaq Allahdan istənildiyi kimi ruzi də ancaq Allahdan istənilir. Uca Allah buyurub: { Ölməz, əbədi Yaşayana təvəkkül et } [Furqan: 58] .

*Çox xəbərlərə baxmamaq.

## Dördüncü əsas

Müəllif Allah ona rəhmət etsin demişdir:
Elmin və alimlərin , fiqhin və fəqihlərin bəyanı və özünü onlara oxşadaraq onlardan olmayanların bəyanı. Allah azzə və cəllə bəqərə surəsinin əvvəlində bu əsas haqqında danışaraq bəyan edir. Uca Allah buyurur: “ Ey İsrail oğulları! Sizə bəxş etdiyim nemətimi xatırlayın” { bəqərə 40 } ayəsində başlayaraq “ Ey İsrail oğulları! “ { Bəqərə 122 } ayəsinə qədər.
Əlavə izah olaraq: Sünnə bu əsasi ən səfeh insanın belə başa düşəcəyi formada bəyan edir.
Sonra işlər ən qəribə hal aldı. Elm və fiqh bidət və zəlalətə çevrildi. Onlar haqqa batil donu geyindirməyi seçdilər. Beləcə Allahın məxluqata fərz etdiyi onu və əhlini tərif etdiyi elm, zındıq və səfehlərin danışmasına çevrildi. Faydalı elmdən çəkindirən məzəmmət olunan elm haqqında kitab yazıb yayan fəqih və alim adlandırıldı.

## Elm iki növdür:

| | |
|---|---|
| **1).Şəriətlə bağlı olan elm.**<br>O da: Allahın Öz Elçisinə nazil etdiyi açıq-aydın dəlillər və doğru yolu göstərən elmdir. Və bu o elmdir ki, onda mütləq tərif vardır və onun mənşəyi Kitab və Sünnədir | **2).Dünya elmləri:** Tibb, həndəsə və qeyriləri. Onlarında hər birnin özünə aid halı var: |

| | | |
|---|---|---|
| A } Əgər xeyirə vəsilədirsə onda xeyir vardır. | B } Əgər şərə vəsilədirsə onda şər vardır. | C } Əgər nə xeyrə nə də şərə vəsilədirsə, əyləncədən və vaxt itkisindən başqa bir şey deyildir. |

| Elmin tərif olunması haqqında varid olan dəlillər. | | |
|---|---|---|
| 1) Uca Allah buyurur: De: Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi ?! Bundan ancaq ağıl sahibləri ibrət alar. [ Zumər surəsi 9 ] | 2) Allah elçisi sallallahu aleyhi və səlləm demişdir: Şübhəsiz, peyğəmbərlər, miras olaraq nə dinar, nə də dirhəm qoymuşlardır. Onlar sadəcə miras olaraq elm qoymuşlardır. Kim o mirasdan götürmuşsə, bol bir pay götürmüşdür. [Əhməd və bəzi sünən sahibləri rəvayət etmişlər] | 3) Allah elçisi sallallahu aleyhi və səlləm demişdir: Allah kimə xeyir istəyərsə onu dində fəqih edər. [ Buxari Muslim ] |

| Elmin fəzilətlərindən | |
|---|---|
| 1).Allah elm əhlini dünyada etdiklərinə görə bəndələri arasında yüksəldir, axirətdə isə cənnətdə onların dərəcələrini yüksəldəcək. | 2) Öləndən sonra insana qalan budur; **Qul, öldüyü vaxt, bu 3 şey xaricində bütün əməlləri ondan kəsilər: Faydalı elm, Sədəqə-i cariyə (savabı öldükdən sonra da davam edən xeyirli əməllər ) , Özünə dua edən saleh övlad.”** Muslim |

3).Elmdə həsəd etmək icazəlidir:
**“Yalnız iki şəxsə həsəd aparmaq olar. O şəxsə ki, Allah ona hikmət verib, o da ona əməl edir və başqalarına da öyrədir. Digəri də o şəxsə ki, Allah ona var- dövlət bəxş etmiş, o da onu lazımi yerlərə Allah yolunda xərcləyir. [** Buxari Muslim ]

| | | |
|---|---|---|
| 4) Şübhəsiz ki elm peyğəmbərin mirasıdır. Onlar sadəcə miras olaraq elm qoymuşlardır. | 5) O, bəndəni nurlandıran bir nurdur ki, o, Rəbbinə necə ibadət etməyi, başqaları ilə necə rəftar etməyi bilir. | 6) Şübhəsiz ki Alim, insanları dini və dünyəvi işlərində doğruya yönəldən bir nurdur |

## Bizim üzərimizə nə vacibdir ?

Bizə vacibdir ki, həqiqi alimlər kimlərdirsə onları tanıyaq. Onlar Rabbani alimlərdir. İnsanlara Rəbbinin şəriətini öyrədirlər. Onların ən mühüm əlamətlərindən; Dəlili Kitaba və Sünnədən sələflərin həyatından gətirərlər və elmlə əməl edərlər və çox ibadət edərlər. Digər alimlər onların haqqında şahidlik edərlər. Şirkdən və bidətdən çəkindirərlər.

## Beşinci əsas

Müəllif, Allah ona rəhmət etsin, demişdir:
**Uca Allah övliyaları açıqlayaraq , özlərini övliyalara oxşadan münafiqlər və günahkarlar ilə onların arasını ayırdı.**
Bunun üçün Ali İmran surəsindəki bir ayət belə kifayətdir. Uca Allah buyurur: **De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da, sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayandır, rəhimlidir."** { Alı İmran 31 } . Digər ayə isə əl-Maidə surəsində keçir. Uca Allah buyurur: **Ey iman gətirənlər! Sizlərdən kim dinindən dönərsə, bilsin ki, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan bir camaat gətirər.** əl-Maidə 54. Eləcə də Yunis surəsində Uca Allah buyurur: **Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər. O kəslər ki, iman gətirmiş və Allahdan qorxmuşlar.** Yunis 62.
Sonra iş elə bir nöqtəyə gəldi çatdı ki, insanları hidayətə sövq etdiyini və şəriəti qoruduğunu önə sürən elm iddiaçılarının belə, əksəriyyəti "övliyalar mütləq rəsullara tabeçiliyi tərk etməlidir. Rəsullara tabe olan, vəlilərdən deyildir. Habelə cihadı mütləq tərk etməlidir. Cihad edən onlardan deyildir. Həmçinin imanlı və təqvalı olmağı mütləq tərk etməlidir. İmana və təqvaya önəm verən onlardan deyildir." – kimi rəydə olmuşlar.
Ey Rəbbimiz ! Səndən əfv və afiyət istəyirik. Şübhəsiz ki sən duaları eşidənsən!

| Allahın övliyalarını necə tanıyırıq. | |
|---|---|
| Onlar Allaha iman gətirən, Ondan qorxan və dinində sabit olan kəslərdir. Uca Allah buyurdu: **Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər.** Yunis 62. | Övliyalıq iddiası nəfsin tərifini ehtiva edir və bu, Allah qorxusu ilə ziddiyyət təşkil edir. Uca Allah buyurdu: **Özünüzü təmizə çıxartmayın! Çünki O, kimin Allahdan qorxduğunu yaxşı bilir.** Nəcm 32 |

| Müəllif { Allah ona rəhmət etsin } bu haqda üç ayəni qeyd etdi. | |
|---|---|
| 1).De: **“Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da, sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayandır, rəhmlidir.”** Ali İmran 31. Bu ayə imtahan ayəsı adlanır. Həsən əl-Bəsri demişdir: Allah Rəsulunun (sallallahu aleyhi və səlləm) zamanında insanlar deyirdilər: Ey Allahın Rəsulu; Biz Rəbbimizi şiddətli məhəbbətlə sevirik, ona görə də Allah-Taala sevgisini bayraq edənləri imtahan etmək üçün bu ayəni nazil etdi. | 2).Ey iman gətirənlər! Sizlərdən kim dinindən dönərsə, bilsin ki, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan bir camaat gətirər.<br>Uca Allah onları belə vəsf etmişdir:<br>1) Möminlərə qarşı mülayim olub onlara vuruşmazlar və onlara qarşı çıxmazlar.<br>2) Kafirlər üzərində qüdrətli, yəni: onlara qarşı güclü, onlara qalib gələrlər.<br>3) Allahın kəliməsi uca olsun deyə Allah yolunda cihad edərlər.<br>4) Bu yolda Allah üçün heç kimin qınağından qorxmazlar. |
| 3). Uca Allah buyurur: **Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər. O kəslər ki, iman gətirmiş və Allahdan qorxmuşlar.** Yunis 62-63 | |

| |
|---|
| Allah azzə və cəllə bu ayədə övliyalarını qəlblərində iman, əzalarında təqva ilə vəsf etdi. |

<table>
<tr><td colspan="2">Şeyxul isləm ibn Teymiyyə demişdir:</td></tr>
<tr><td colspan="2">Uca Allah Öz Kitabında və Rəsulunun sünnəsində açıq şəkildə bildirmişdir ki, Allahın insanlar arasında vəliləri vardır. Şeytanın da vəliləri var. Beləliklə, Rəhmanın vəliləri ilə Şeytanın vəliləri arasında fərq vardır:</td></tr>
<tr><td>1) Allah dostları<br>Uca Allah öz dostları haqqında buyurur: Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər. O kəslər ki, iman gətirmiş və Allahdan qorxmuşlar.<br>[ Yunis 62-63 ]</td><td>2) Şeytanın dostları<br>Uca Allah şeytanın dostları haqqında buyurur: Onun hakimiyyəti { yəni şeytanın } yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir.<br>[ Nəhl 100 ]</td></tr>
</table>

| **Şeyxul isləm ibn Teymiyyə demişdir:** |
|---|
| Şeyxlərin və alimlərin bir çoxu belə dedilər: “ Əgər havada uçan və su üzərində yeriyən bir insan görsən, onun əmr və qadağalara qarşı necə durduğunu görməyincə ona aldanma ”. |

| Allah dostları iki təbəqədir. | |
|---|---|
| Öndə gedərək Allaha ən yaxın olanlar. | Sağ tərəf sahibləri, orta yol tutanlar. |
| Allah-təala öz müqəddəs kitabında bir neçə yerdə bunları qeyd etmişdir: **“Vaqiə”** surəsinin əvvəlində və sonunda, **“İnsan”, “əl-Mütəffifin”** və **“Fatir”** surəsində.<br>Cənnət isə çox fərqli dərəcələr vardır Allahın övliyaları, təqvalı möminləri, iman və təqvalarına görə o dərəcələrdə olacaqlar. | |

| Allahın övliyalarına qarşı insanların kateqoriyaları. | | |
|---|---|---|
| 1). Həddi aşanlar. ( övliya hesab etdikləri ) bir şəxsin, Allahın vəlisi olduğuna inanarsa, Rəbbi ilə ürəyində danışdığını zənn edər hər şeydə onunla razılaşar və hər şeyini Ona təslim edər. | 2).Əhəmiyyət verməyənlər. ( Övliya hesab etdikləri ) şəriətə uyğun olmayan bir şey söylədiyini və ya etdiyini görsə, ictihad edib yanılmış olsa belə, onu tamamilə Allahın vəliliyindən çıxarar. | 3).Orta yolda olanlar. ( övliya hesab etdikləri ) əgər ictihad edib xəta edərsə, onu məsum və ya günahkar saymaz, hər dediyi sözdə ona tabe olmaz və onu ictihadına görə küfr və fasiqlikdə mühakimə etməz. |

| Allah dostlarının kəraməti | | |
|---|---|---|
| 1).Sabit olanlar. Onlar Allahın kəramətlə şərəfləndirdiyi muttəqi qullarıdir. Allahın dostlarının kəramətlə seçilməsi isə onların dində hüccət gətirməsi və ya müsəlmanların ehtiyacı üçündür. | 2).Peyğəmbərlik əlaməti. Bu, yalnız Allah Rəsuluna ( sallallahu aleyhi və səlləm) tabe olmağın bərəkəti ilə hasil olur. Ona görə də həqiqətdə Peyğəmbərlik əlamətlərinin altına daxil edilmişdir. | 3).Vəli üçün lazım olmayan Kəramət kişinin ehtiyacına görə verilir. əgər iman zəifliyi üzündən ona ehtiyac varsa, ona imanını gücləndirən və ehtiyacını ödəyən kəramətdən bir şey verilər. Beləcə, özündən daha kamil övliyadan ehtiyacsız olar. Buna görə də bu məsələlər səhabələrdən çox tabeinlərin arasında var idi. |

| Adəti pozan şeylər.( Paranormal ) | | | |
|---|---|---|---|
| Bu: (havada uçmaq və ya su üzərində gəzmək kimi insanların adət etdiklərinə zidd olan şeylərdir ). **Onlar dörd növdür:** | | | |
| 1).Ayət ( əlamət). Peyğəmbərlər üçündür və bunun möcüzə olduğu deyilmir. Çünki Quranda qeyd olunan budur. Möcüzə bəzi insanları aciz edə bilər və peyğəmbər olmayanlar üçün də ola bilər və Peyğəmbərin vəfatından sonra heç kim bir ayət ( əlamət ) iddia edə bilməz. | 2).Kəramət. O, Rəhmanın övliyalarında olur. O kəslər ki, onlar iman və təqvanı özlərində cəm ediblər. Kəramətə misal Əshabi-Kəhf baş verənlərdir. | 3).Möcüzə və Fitnə. Şeytanın dostları üçündür, biz bunu insanın halını bilməklə bilirik. O şəxs ki onun nə iman, nə də təqvası yoxdur. Belə möcüzə nümunəsi Dəccaldan baş verənlərdir. | 4).Rəzillik, Rüsvayçılıq Kim Allaha qarşı yalan danışarsa, axirətdən əvvəl bu dünyada üzə çıxacaq. Bu rüsvayçılığa misal yalançı Museyləmədə baş verənlərdir. Gözü xəstə insanın gözünə üfürməklə gözləri tutulurdu. |

| Adəti pozan ( Paranormal ) hadisələrdə insanların qisimləri: | | |
|---|---|---|
| 1).Yalan sayan:<br>O, peyğəmbərlərdən başqasının varlığını inkar edir və ola bilsin ki, ümumi olaraq bunu təsdiq edir və bir çox insanlar haqqında ona deyilənləri inkar edir, çünki ona görə övliya yoxdur. | 2).İfrat edən:<br>Adəti pozan (paranormal) hadisələri kimdə görərsə onun övliya olduğunu zənn edir. | 3).Orta yol tutan:<br>O, inanır ki, Allah qullarından istədiyinə fövqəltəbii şəkildə kəramət bəxş edir. Ancaq hər fövqəltəbii ( paranormal ) hadisə kəramət deyil, əksinə, fövqəltəbii hadisələr sehrbazların və şarlatanların əli ilə də baş verə bilər. |

| Şeyxul-İsləm İbn Teymiyyə [ Allah ona rəhmət etsin ] "Rəhmanın dostları ilə şeytanın dostları arasında meyar" kitabından Allahın dostları ilə şeytanın dostları arasındakı fərqlərin xülasəsi: | |
|---|---|
| 1).Allah dostları :<br>* Kitaba və Sünnəyə tabe olurlar.<br>* Onlar iman və təqva ilə vəsfləniblər. ( İnsanlar mədəndirlər, onları biri birindən üstün tutan təqvadır.<br>*Peyğəmbərə tabe olurlar və onun şəriətindən çıxmırlar.<br>* İnsanları Peyğəmbərə tabe olmağa, dini vəzifələri yerinə yetirməyə, fərzləri yerinə yetirməyə, dua etməyə həvəsləndirirlər.<br>* Onlar Peyğəmbərin Vəlidən daha üstün olduğuna və Vəlinin icma ilə məsum olmadığına inanırlar.<br>*İman və təqva onların kəramət əldə etmələrinin səbəbidir. ( mükafat əməlin növünə görədir ). | 2).Şeytanın dostları:<br>* Kitab və sünnəyə müxalif olurlar.<br>* Küfr, günah, kahinlik, sehirbazlıq, dəlilik və əxlaqsızlıqla səciyyələniblər.<br>*Peyğəmbərə müxalif olub onun şəriətindən çıxırlar.<br>* İnsanları özlərinə tabe olmağa həvəsləndirərlər və fərzləri yerinə yetirməzlər, Allaha da dua etməzlər.<br>* İnanırlar ki, övliya peyğəmbərdən üstündür və O, məsumdur, istəsə icmaya müxalif ola bilər.<br>* Onlarda möcüzə, fitnə və rəzillik olur. Heç bir kafir, münafiq övliya ola bilməz. Kafirləri tərif edirlər. |

| Allah dostları: | Şeytanın dostları |
|---|---|
| *Allah üçün sevib , Allah üçün dostluq edərlər.<br>*Nifaqdan qorxarlar, öz halları ilə inşaları aldatmırlar.<br>*İnsanlardan seçilməzlər. Üzərlərində peyğəmbər sallallahu aleyhi və sələmin sünnəsi görünür.<br>*Onlarda ifrat və təfrit yoxdur.<br>*Zahiri və batini imanla xarakterizə olunmuşlar.<br>*Kim iddia etsə ki Muhamməd sallallahu aleyhi və səlləm ancaq zahiri bilir batini bilmir o kafirdir.<br>*Peyğəmbərin sallallahu aleyhi və səlləmin vəliliyinin bənzəri yoxdur..<br>*Onlar müsbətlər zamanı qəza və qədəri hüccət gətirirlər eyib və qüsur  zamanı deyil.<br>*Onlar günahda israr etmirlər və bu, Allahın quluna olan sevgisinin əlamətlərindəndir.<br>*Onların ibadət yerləri məscidlərdir.<br>*Kəramətlərinin əlamətləri doğru yol üzərində sabit qalmalarıdır. | *Allah üçün buğz edərlər.<br>*Nifaqdan qorxmurlar, öz halları ilə insanları aldadırlar.<br>*Libas və təraş və qeyri şeylərdə insanlardan seçilirlər və kafirlərə oxşayırlar.<br>*Onlarda ifrat və təfrit də vardır.<br>*Zahiri imanla batini imanın arasını ayırırlar.<br>*Onlara tabe olanlar etiqad edirlər ki onlar batini bilir.<br>*Onlara tabe olanlar etiqad edir ki, peyğəmbərlik və övliyalıq məədəni birdir.<br>*Təcavüzkarlar, itaət zamanı qədəri, asilik zamanı isə cəbəridirlər.<br>*"Hulul"  və "vəhdətul vücud" etiqadındadırlar.<br>*Şeytan onları elə hiyləgərliklə aldadıb ki, mələk olduğunu düşünürlər.<br>*Onlara tabe olanlar onlarda peyğəmbərlik xüsusiyyətinin olduğuna və mələk vəsfinin olduğuna inanırlar.<br>*Qəbir olan yerləri özlərinə səcdəgah seçirlər.<br>*Onlar şeytani hallarını gücləndirən işləri görürlər musiqi və fit verib və əl çalmaq kimi. |

## Altıncı əsas:

Müəllif, Allah ona rəhmət etsin, dedi:
Müxtəlif rəylərə və havalara tabe olaraq quran və sünnəni tərk edənlərdən şeytanın qoyduğu şübhəni rədd etmək. Şübhə odur ki, Quran və Sünnəni ancaq mütləq müctəhid bilir. Müctəhid isə filan vəsflərlə vəsf olunur, bəlkə də bu vəsflər Əbu Bəkr və Ömərdə belə tam rast gəlinmir!
Əgər şəxs belə deyilsə, qəti şəkildə vacibdir ki, onlardan çəkinsin. Bunda heç bir şəkk-şübhə yoxdur. Kim onlardan hidayət istəsə, onları anlamaqda çətinlik çəkdiyi üçün ya zındıqdır, ya da dəlidir. !! Allah pakdır və Ona həmd olsun: Uca Allah ümumi zərurət həddinə çatmış bu lənətlənmiş şübhəyə cavab olaraq, şəriət, yaradılış və nizam-intizam tərəfdən müxtəlif yollarla izah etmişdir.
Uca Allah buyurur: Lakin insanların çoxu bunu bilmir." [ əl-Əraf surəsi 187. ]
Uca Allah buyurur: Onların əksəriyyəti barəsindəki söz gerçəkləşdi. Çünki onlar iman gətirmədilər. Biz onların boyunlarına zəncir vurmuşuq. Bu zəncirlər onların çənələrinə dirənib. Odur ki, başları təkəbbürlə yuxarı qalxmışdır. Biz onların önlərindən bir sədd, arxalarından da başqa bir sədd çəkdik və gözlərinə pərdə saldıq. Buna görə də onlar haqqı görmürlər. Sən onları qorxutsan da, qorxutmasan da, onlar üçün eynidir, iman gətirməyəcəklər. Sən ancaq Zikrə tabe olub Mərhəmətli Allahı görmədən Ondan çəkinən şəxsi qorxuda bilərsən. Beləsini bağışlanma və çox gözəl bir mükafatla müjdələ.[ Yasin 7-11 ]

| İctihad | |
|---|---|
| **Lüğəti mənada:**<br>Çətin bir işi dərk etmək üçün cəhd etmək. | **İstilahi mənada:**<br>Şəriət hökmünü anlamaq üçün cəhd etmək |

| İctihadın şərtlər | | |
|---|---|---|
| 1).Şəri dəlillərdən, ictihad da nəyə ehtiyacın olduğunu bilmək; Hökm ayələri və hədislər kimi. | 2).Hədisin səhihliyi və zəifliyi ilə əlaqəli olan şeyləri bilmək, məsələn, (isnadı ) rəvayət zəncirini, (rical elmini ) ravilərini bilmək və sairə. | 3).Hökmdən salan və hökmü düşmüş ( nəsx və mənsux ) ayələri və icmanın yerlərini bilmək ki, hətta hökmdən düşmüş ayə ilə və ya icmanın əksinə hökm verməmək üçün. |
| 4).Hökmün nə ilə fərqləndiyini dəlillərdən bilmək; İstisna  edilmiş yaxud qeydlə bildirilmiş yaxud buna bənzər şeyləri bilmək ki, hətta bunun əksinə hökm etməsin. | 5).Ləfzlərin nəyə dəlalət etdiyini anlamaq üçün fiqh əsaslarını və ərəb dili qaydalarını bilmək. Ümumi və xüsusi kimi. Bu göstəricilərin tələb etdiyi qaydada hökm etmək üçün. | 6).Quran və sünnənin dəlillərindən hökm çıxarmaq qabiliyyətinə malik olmalı. |

| İctihad hissələrə bölünürmü? |
|---|
| Bəli. İctihad hissələrə bölünür. İctihad elm qapılarından bir qapıdır və yaxud elmi şöbələrindən bir şöbədir. |

| Müctəhidə lazımdır ki, elmi ilə cəhd etsin: | |
|---|---|
| 1).Hökm ona aydın olduqda hökm versin. | 2).Əgər hökm aydın olmasa : Vacibdir ki, orada dayanılsın. Belə halda zərurətdən dolayı təqlid etməyə icazə verilir. |
| A).Əgər verdiyi hökm haqqa isabət etsə: Onun üçün iki əcr vardır.<br>Birinci: ictihad etdiyinə görə.<br>İkinci: Haqqa isabət etidyinə görə. Çünki haqqa isabət edildikdə haqq ortaya çıxır və ona əməl edilir. | B).Əgər xəta etsə: Onun üçün bir əcr vardır. Xətası isə bağışlanılır. |

| Təqlidin iki yeri var: | |
|---|---|
| 1).Təqlid edən avam adam olarsa özü özlüyündə hökmü bilməyi bacarmazsa, ona vacibdir ki, belə halda təqlid Uca Allah buyurur: Əgər bilmirsinizsə, zikr əhlindən soruşun. [ Nəhs surəsi 43 ] | 2).Əgər müctəhidin başına ani bir hadisə gələrsə və O dərhal bu məsələyə baxa bilməzsə; O zaman onun təqlid etməsi caizdir. |

| Təqlid iki növdür: | |
|---|---|
| 1).Təqlid edən avam adam olarsa özü özlüyündə hökmü bilməyi bacarmazsa, ona vacibdir ki, belə halda təqlid Uca Allah buyurur: Əgər bilmirsinizsə, zikr əhlindən soruşun. [ Nəhs surəsi 43 ] | 2).Xüsusi: Müəyyən bir halda müəyyən bir rəyi qəbul etmək; Əgər həqiqəti bilə bilmirsə, bu icazəlidir. İstər: |
| A).Doğurdan da bilməkdən aciz olsun | B).Çox çətinliklə də olsa bunu bilməyi bacarsa belə. |

| |
|---|
| Müəllif Allah ona rəhmət etsin demişdir:<br>Sonda  həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salavatı və salamı qiyamət gününə qədər peyğəmbərimiz Muhəmmədə və onun ailəsinə və səhabələrinə, üzərinə olsun. |

# İmtahan

Aşağıdakı suallara cavab ver:

| | |
|---|---|
| **Altı əsası nə üçün öyrənirik ?** | 1. ------------------------------------------------------------<br>2. ------------------------------------------------------------ |
| **Altı əsası və ona zidd olanları zikr et.** | 1. ------------------------------------------------------------<br>2. ------------------------------------------------------------<br>3. ------------------------------------------------------------<br>4. ------------------------------------------------------------<br>5. ------------------------------------------------------------<br>6. ------------------------------------------------------------ |

## Doğru cavabı seç

**Altı əsas üzərində:** **icma edilib** ☐ **İxtilaf edilib** ☐

**Kitab və sünnədə olan ədədi zikr et:**

**Anlamı var** ☐ **Anlamı yoxdur** ☐ **Təfsilatı var** ☐

**Mənaya dəlalət edən ünsürlər:** **Üç** ☐ **Dörd** ☐ **Beş** ☐

| Doğru və Yanlış qeyd etməklə suallara cavab ver. | | |
|---|---|---|
| **Suallar** | **Doğru** | **Yanlış** |
| Bəzən ədəd zikr olunur lakin anlamı olmur. Misal; Cənnətin qapıları. | | |
| Bəzən də ədəd zikr olunur anlamı olur. Məsələn; Cənnətlə müjdələnən on əshabə. | | |
| Məclisdə ədədin zikr olunması dinləyicilərin bunu yadda saxlamalarına sonra da xatırlamalarına dəlalət edir. | | |
| Allah üçün müəllif kitabdakı məsələləri inci kimi cəm etmişdir | | |

**Aşağıda gələn anlamı olan ədədlərin ətrafın dairə çək.**

| | | | |
|---|---|---|---|
| İmanın ərkanları | Yeddi həlak edici günahlar | Uç əsas | Beş şey fitrətdəndir |
| İt qabı yaladığı zaman onu yeddi dəfə yumaq | Ümmətim yetmiş üç firqəyə bölünəcək | İnsanlarda iki xislət vardır ki, onlar küfürdür | Fərz namazlarının sonra edilən zikirlər |

**Şeyx Muhəmməd bin Abdul Vahhabın, [ Allah ona rəhmət etsin ] Allah ona rəhmət etsin, kitablarında, əlavə edilə bilməyən xüsusi ədəd ilə əlavə edilə bilən qeyri-spesifik ədədi izah et.**

| Üç əsas | Dörd qayda | İslamdan çıxaran on məsələ | Altı əsas |
|---|---|---|---|
| -------------------- | --------------------- | --------------------- | ------------------ |